## Əməkdar müəllim, görkəmli şair

# Oqtay Rza - 90



*(Veblioqrafiya)*

**Bakı - 2024**

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024.**

**Tərtib etdi:** **Məlumat-biblioqrafiya şöbəsi**

**Əkbərova Aysel**

**Ünvan**: Bakı şəhəri, S.Vurğun küçəsi 88

**Əlaqə:** (+99412) 597-08-79, (+99412) 597-09-86

info@clb.az

ushaqkitabxanasi@gmail.com

childlibbaku@yahoo.com

## Giriş

Oqtay Rza gözəl əsərləri ilə sevilib-seçilən, çağdaş poeziyamızda özünəməxsus yeri olan şairlərimizdəndir. O, irili-xırdalı neçə-neçə şeir və nəsr kitablarının müəllifidir.

Oqtay Rza 1934-cü il noyabrın 2-də Salyan rayonunun Qalalı kəndində anadan olmuşdur. Arbatan kənd yeddillik məktəbini bitirib Salyan şəhərindəki Nizami adına orta məktəbdə təhsilini davam etdirmişdir (1948-1951). Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib geoloq ixtisası almışdır (1951-1956). Əmək fəaliyyətinə Bayıldakı Neft və Qazçıxarma İdarəsinin 5 saylı mədənində başlamışdır: operator, başoperator, neftçıxarma ustası olmuşdur (1956-1961). Elmi-tədqiqat işi müdafiə edib geologiya-minerologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Oqtay Rza N.Tusi adına APİ-nin ümumi coğrafiya kafedrasında müəllim, baş müəllim (1966-1969), dosent (1971) işləmiş, deputat seçilmişdir.

Oqtay Rza ilk şeirlərindən birini "Azərbaycan pioneri", indiki "Savalan" qəzetində dərc etdirib. Şair o vaxtdan bəri bir gün də olsun qələmdən ayrılmayıb, coşqun ilhamla yazıb yaradıb. İndiyə qədər çoxlu kitabları çapdan çıxıb, şeirləri bir çox dillərə tərcümə olunub. Doğma yurdumuzu oba-oba, oymaq-oymaq gəzmiş şairin şeir dünyası zəngin, mövzu dairəsi geniş və əlvandır. Oqtay Rza şeirlərində sözlər elə sıralanır ki, sanki rəqs edir. Şair sözün laylarından çıxaraq, inciləri yarpaq-yarpaq düzərək canlandırır. Oqtay Rzanın şeirlərində məna zənginliyi vardır: bu da onun alimliyindən, xüsusilə təbii aləmin anatomiyası və geologiyasını bilməsindən irəli gəlir. Oqtay Rza çoxsaylı kitabların, bu kitablarda toplanıb işıq üzü görmüş yüzlərlə poeziya nümunələrinin müəllifidir.

Oqtay Rza həm lirik, həm də uşaq şairidir. Şairin "Ürəyimi oxuyun" (1975), "Günəşin adından" (1991), "Hara gedirəmsə" (1980), "Daş çırağın işığında" (1983), "Küçələr" (1980), "Körpü" (1980), "Doğmalıq" kitabları ürəklərə yol tapıb sevilə-sevilə oxunur. Oqtay Rzanın poeziyasında təbiət xüsusi poetik mərhələ təşkil edir. O, geoloq, alim, müəllim olaraq bu günün prizmasından dünyanı gəzib dolaşmışdır. "Payız", "Zövhə", "Maralgöl", "Qonaqkəndə gedən yolda", "Xınalıq", "Bulud", "Lahıc lövhələri", "Yasəmən ağacı çiçəkləyəndə" və onlarla şeirlərini misal gətirmək olar.

Oqtay Rza 18 avqust 2019-cu ildə vəfat etmişdir.

Oqtay Rzanın 90 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası şair haqqında fondunda mövcud olan çap əsərlərinin tam mətnli təsvirlərini, şair haqqında tanınmış şəxslərin söylədikləri fikirləri bir araya toplayaraq oxucuların istifadəsinə təqdim edir.

## Görkəmli şəxsiyyətlərin Oqtay Rza haqqında söylədikləri fikirlər

Oqtayın "İşıq sürətilə uçası olsam" adlı şeiri elmlə poeziyanın vəhdətinə ən səciyyəvi misaldır.

Şan-şöhrət qucmaram, dövlət qucmaram,

Qaçmaram meydandan, mübarizədən,

İşıq sürətiylə hələ uçmaram

Bir az lazımamsa bu dövrana mən.

**Ramiz Qurbanov,**

*professor*

Oqtay Rza böyük məhəbbət bəslədiyim gözəl insan, istedadlı şair, alim, dostumdur mənim.

**Ağarəhim Rəhimli,**

*yazıçı*

Oqtay Rzanın yaradıcılığında Azərbaycan torpağı, onun əsrarəngiz gözəllikləri, füsunkar təbiəti, xalqımızın Vətən sevgisi, istiqlaliyyət mübarizəsi tərənnüm olunur.

**Nahid Hacızadə,**

*ssenarist*

Oqtay Rzanın böyüklüyü ondadır ki, o Füzulini, Səməd Vurğunu özünə ustad, bələdçi bilir. Bəli, şairin poetik dünyası baxma bucağından asılı olmayaraq bütün parametrlərdə zəngin və rəngarəngdir.

**Əzizxan Tanrıverdi,**

*professor*

Tanınmış şairimiz Oqtay Rzanın şeirlərini onun pərəstişkarları olan biz böyüklərlə bərabər gənc nəsil balalarımız həvəslə oxuyur, incəqəlbli sənətkarı çox sevirlər.

**Akif Aslan,**

*Əməkdar mədəniyyət işçisi*

## Kitabları

### *Latın qrafikası ilə*




[Baldan şirin balalar : poeziya. - Bakı : Turan Nəşrlər Evi, 2008. - 24 s.]

Tanınmış şair Oqtay Rzanın adı respublikamızın hər yerində hörmətlə çəkilir. Onu uşaqlar da sevir, böyüklər də. Bu da onunla bağlıdır ki, şairin kitabları ürəklərə yol tapıb, sevilə-sevilə oxunur. Oqtay Rzanın vətənpərvərlik mövzusunda yazdığı şeirlər dərsliklərə daxil edilib. Həmin şeirlər dillər əzbəridir. Onun yeni kitabı belə adlanır: "Baldan şirin balalar".




[Uşaq təbəssümü : şeirlər. - Bakı : Turan Nəşrlər Evi, 2009. - 24 s.]

Bu kitabda şairin son vaxtlarda qələmə aldığı şeirlər toplanıb. Şairin dogma yurdun  təbiəti və vətənpərvərlik mövzusunda yazdığı şeirlər orta məktəb dərsliklərinə də daxil edilib. Sevimli şairimizin bu kitabı hamınıza sevinc bəxş edəcək və bu baldan şirin misraları bir daha həvəslə oxuyacaqsınız.




[Adlı, ünvanlı misralar. III hissə. - Bakı : Yazıçı, 2013. - 316 s.]

Bu toplu Oqtay Rzanın 2005-ci ildə eyni adla çap etdirdiyi kitabın davamıdır. Müəllifin qarşısında duran əsas vəzifə nə imiş? Həmin sualın cavabını üçüncü səhifəsində dərc olunmuş məqalədən öyrənə bilərsiniz.




[Rübai karvanı, dördlük çələngi : 3- cü kitab. - Bakı : Mütərcim, 2019. - 100 s.]

Kitabda yer alan rübailər Oqtay Rzanın geniş yaradıcılıq marağını göstərməklə birlikdə, eyni zamanda şairin yüksək bədii-estetik zövq və istedadını da üzə çıxarmış olur. Səlis dilə malik, zəngin klassik ənənələrimizə təməllənən, eyni zamanda aktual, sosial-mədəni mövzulara müraciət edən Oqtay Rza şeiri elə sırf bu səbəblərdən dolayı geniş oxucu kütləsinin sevgisini qazanır və gələcəkdə də bu sevginin sönməyəcəyinə inamımız böyükdür.




[Seçilmiş sətirlərim : poeziya. - Bakı : Azərnəşr, 2001. - 264 s.]

Kitabda Oqtay Rzanın kiril və latın qrafikası ilə şeirləri verilmişdir. "Vətən bölünməz", "Göz kimisən yer kürəmiz", "Meşənin qışda da çiçəyi olsun" və b.şeirləri oxucuların könlünü oxşayacaq.

## *Kiril əlifbası ilə*




[Günəşin adından : şeirlər. - Bakı : Yazıçı, 1991. - 144, [1] s.]

Kitabda şairin 90-cı illərdə qələmə aldığı şeirləri toplanmışdır. Onların əksəriyyətində ikiyə bölünmüş torpağımızın, çətin günlər keçirən, namərd qonşunun hücumlarına məruz qalan xalqımızın taleyi ilə bağlı məsələlər öz əksini tapıb.

[Daş çırağın işığında : Qeydlər, sənədli hekayələr, oçerklər. - Bakı : Gənclik, 1983. - 133 s.]




Bu kitabın nəşri sevimli balalarımız, ağıllı və mehriban uşaqlarımız, yüksək amallı gənclərimiz üçün nəzərdə tutulub. Həm cavan, həm də yaşlı nəslin bu əsər barədə fikrini bilmək şairin arzusudur.

## Əsərləri kitablarda




[Xocalı ; Cəmaləddin ; İlqar ; Səs : şeir // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 197-200.]

Bu kitabda çox saylı şeirlər və poemalar dərd və ağıların, olmazın müsibətlərin bir növ iştirakçısıdır, dağılan dədə-baba yurdlarımızın ah-naləsindən bəhs olunur.

[Məhərrəmlilər //Söz adamı : Məqalələr toplusu. - Bakı : Səda, 2015. – S. 139.]




Kitabda tanınmış yazıçı-publisist, pedaqogika üzrə fəlsəfə doktoru Zemfira Məhərrəmli haqqında məqalələr toplanmışdır. Əvvəllər ayrı-ayrı qəzetlərdə və kitablarda çap olunmuş, Z.Məhərrəmlinin yaradıcılığının, ictimai fəaliyyətinin müxtəlif məqamlarına işıq salan yazılar da kitaba daxil edilmişdir. Görkəmli ziyalılar - elm və sənət adamları, həmkarları, dostları, keçmiş tələbə yoldaşları öz yazılarında yazıçı-publisistin şəxsiyyəti, həyat və yaradıcılğı barədə ürək sözlərini bölüşmüşlər.

## Haqqında




**Hacızadə N.** Ürək boyda odum qalsa... : Şair Oqtay Rza // Yada düşdü. - Bakı : Araz, 2008. - S. 511-520.

Kitabda Nahid Hacızadənin yaxından tanıdığı, qəlbində yer verdiyi söz-sənət adamları haqqında dərin sevgi, hörmət və ehtiramla qələmə aldığı xatirələr, məqalələr yer almaqla yanaşı, həmçinin, sənət dostlarının onun özü haqqında fikir və düşüncələri də yer alıb.

**Ağayev Ə.** Rübai karvanı, dördlük çələngi // Təməldən əmələ. - Bakı : Aspoliqraf, 2009. - S. 160-161.

Kitabda müəllifin ədəbi düşüncələrinin məhsulu olan məqalələri toplanmışdır. Yarım əsrlik bir dövrdə qələmə alınmış bu yazılar təkcə müəllifin ədəbi baxışları haqqında deyil, onun mövzu dairəsi və inkişaf dinamikası haqqında da aydın təsəvvür yaradır.



## Əsərləri dövrü mətbuatda

Adaşındır başıqarlı Savalan! : şeir // Savalan. - 2017. - 17-23 oktyabr. - № 37. - S. 3.

Adlar, şəxsiyyətlər - rübailərdə // Ədəbiyyat qəzeti. - 2017. - 2 dekabr. - № 44/45. - S. 26.

Adlı, ünvanlı misralar silsiləsindən // Savalan. – 1994. – 21 oktyabr.

Ağacavad Əlizadə: mühüm anlar, unudulmaz məqamlar // 525-ci qəzet. - 2018. - 31 mart. - № 56. - S. 17.

Bir uca zirvədədir : şeir // Ədəbiyyat qəzeti. - 2016. - 29 oktyabr. - № 40. - S. 19.

Bütövlük müəllifi ilə ünsiyyətdən epizodlar : Əliağa Kürçaylı - 90 // 525-ci qəzet. - 2018. - 17 fevral. - № 32. - S. 16, 24.

Cümhuriyyət nəğməsi : şeir // Respublika. - 2019. - 9 iyun. - № 124. - S. 4.

Cümhuriyyət nəğməsi : şeir : Azərbaycan Xalq Cümhuriyyəti - 100 // Ədəbiyyat qəzeti. - 2018. - 26 may. - № 20. - S. 21.

Əsgərə məktub : şeir // 525-ci qəzet. - 2019. - 26 iyun. - № 91. - S. 22.

Fəsil dəyişəndə : şeir // Ədəbiyyat qəzeti. - 2009. - 13 noyabr. - N 42. - S. 5.

Kövrək duyğuların tərənnümçüsü : Xuraman Vəfa - 50 // Ədəbiyyat qəzeti. - 2009. - 20 noyabr. - № 44. - S. 4.

Kürçaylı küçəsi ; Ülkər : şeirlər : Əliağa Kürçaylı - 90 // Ədəbiyyat qəzeti. - 2018. - 17 fevral. - № 6. - S. 25.

Milli Ordu, qüdrətli ol həmişə : şeir // Ədəbiyyat qəzeti. - 2018. - 23 iyun. - № 24. - S. 28.

Mübarək! : şeir // Respublika. - 2018. - 16 avqust. - № 181. - S. 2.

Müvazinət ; Cavab ; İzotoplar ; Təkamül : şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 1 avqust. - № 46. - S. 22.

Nəsimi kimi ; Adım, təxəllüsüm ; Azərbaycan öyrədir və b. şeirlər // 525-ci qəzet. - 2019. - 25 sentyabr. - № 129. - S. 19.

Qələm : şeir // Ədəbiyyat qəzeti. - 2017. - 22 iyul. - № 26. - S. 25.

Rübai karvanı, dördlük çələngi // Ədəbiyyat qəzeti. - 2011. – 18 mart. - № 10. - S. 7.

Rübai karvanı, dördlük çələngi // Ədəbiyyat qəzeti. - 2018. - 21 iyul. - № 28. - S. 21.

Sərhədçiyik biz : (Marş) // Respublika. - 2019. - 18 avqust. - № 178. - S. 3.

Söyüd yarpağının çaldığı layla : şair Ağacavad Əlizadənin yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2018. - 17 mart. - № 10. - S. 23.

## Haqqında dövrü mətbuatda

**Bəşirli Ə**. İlin nə tez ötdü, Oqtay Rza // 525-ci qəzet. - 2020. - 28 avqust. - № 98. - S. 14.

**Binnətova A**. Ana ürəyində dünya yerləşər // Ədəbiyyat və incəsənət. – 1986. – 5 sentyabr.

Bu torpağın balasıyam // Savalan. – 1995. – 7 iyun.

**Cəmil A.** Fanilikdən əbədiyyətə : Oqtay Rzanın ölməz xatirəsinə // Ədəbiyyat qəzeti. - 2019. - 24 avqust. - № 29. - S. 17.

**Emin A**. Şairin poetik aləmi : Oqtay Rza-75 // Ədəbiyyat qəzeti. - 2009. - 13 noyabr. - N 42. - S. 5.

**Əsgərli S.** 75 yaşın əks-sədası // Ədəbiyyat qəzeti. – 2009. – 13 noyabr. – S. 5.

**Hacıheydərli N.** Xalq yazıçısı Anarın "istiqamətverici" sözü və ya Oqtay Rzanın son zəngi // Ədəbiyyat qəzeti. - 2019. - 14 sentyabr. - № 31. - S. 31.

**Hüseynoğlu S.** Sənətkar xoşbəxtliyi : Oqtay Rza - 80 // Respublika. - 2014. - 26 noyabr. - № 258. - S. 7.

**İlyasoğlu R**. Unudulmaz incə rübablı şair // Respublika. - 2019. - 21 avqust. - № 180. - S. 3.

**Muradoğlu N**. Oqtay Rzanın portret yaradıcılığı // 525-ci qəzet. - 2019. - 25 sentyabr. - № 129. - S. 19.

**Müşfiq Ş**. Yetim qalan rübailər // 525-ci qəzet. - 2019. - 21 avqust. - № 114. - S. 2.

Şair Oqtay Rza vəfat edib // Mədəniyyət. - 2019. - 23 avqust. - № 58. - S. 6.

**Şəmsizadə N.** İmza: Oqtay Rza // Ədəbiyyat qəzeti. - 2019. - 24 avqust. - № 29. - S. 16.

**Yerfi R**. Qəlbi cavan şair : Oqtay Rza haqqında // Kaspi. - 2013. - 2-4 fevral. - № 20. - S. 22.

**Yusifli V**. Səksən beşinci payızını görməsə də : Oqtay Rzanı anarkən // Ədəbiyyat qəzeti. - 2019. - 28 sentyabr. - № 33. - S. 25.

**Yusifli V.** Səksəninci payızın mübarək, Oqtay Rza! : şair Oqtay Rzanın həyat və yaradıcılığı haqqında // Kaspi. - 2014. - 1 noyabr. - № 181. - S. 21.